*Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü*

# MÜSTƏQİLLİYİMİZ XALQIMIZIN TARİXİ NAİLİYYƏTİDİR

**XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri də məhz müstəqil respublikamızın yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən ölkəmiz artıq demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Ona görə də XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır.**

Tam müstəqil siyasət yürüdən Azərbaycan dövləti beynəlxalq şəraitdən, maliyyə və iqtisadi böhrandan asılı olmayaraq dinamik və hərtərəfli inkişaf edir, öz siyasi, sosial-iqtisadi qüdrətini artırır, dünyadakı mövqelərini daim möhkəmləndirir. Azərbaycanın inkişaf istiqamətlərinin müxtəlif və bir-biri ilə sıx bağlı olduğunu önə çəkən Prezident İlham Əliyev demişdir: “Güclü iqtisadiyyat, güclü sosial siyasət, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qanunun aliliyinin bərqərar olunması, demokratiyanın inkişafı, siyasi islahatların aparılması və dərinləşməsi - bütün bunlar Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün vacib amillərdir. Onların hamısı Azərbaycanda vardır və bütün istiqamətlərdə islahatlar aparılır... Bizim əməlimizlə sözümüz arasında heç bir fərq yoxdur. Biz müstəqil siyasət aparırıq, öz gücümüzə arxalanırıq, öz hesabımıza yaşayırıq”.

Bu gün dövlət başçısı cənab İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın çağdaş tarixinin şanlı səhifələri yazılır. Təsadüfi deyildir ki, bəzi Qərb dövlətlərinin onilliklər boyu adlamış inkişaf yolunu qısa zamanda keçən müstəqil Azərbaycanın iqtisadi yüksəliş və demokratikləşmə sahəsində həlledici nailiyyətlərə imza atması dünyanın ən nüfuzlu politoloq və iqtisadçılarını belə heyran qoyub. Belə ki, Qərb dövlətlərinin bir neçə yüzillikdə keçdiyi inkişaf yolunu respublikamız çox qısa müddətdə başa vurmuş, siyasi mühitin liberallaşması və demokratikləşmə sahəsində həlledici uğurlara imza atmış, Avrastrukturlara inteqrasiya prosesinə inamlı addımlarla qədəm qoymuşdur. Cənab İlham Əliyev özünün praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır.

Qazanılan nailiyyətlər çox qısa bir zaman kəsiyində əldə olunsa da, bu günün müstəvisindən ötən əsrin 90-cı illərinin əvvəllərinə - müstəqilliyimizin ilk illərinə nəzər yetirəndə ötən müddətdə keçdiyimiz yolun bütün təzadları və həqiqətləri gözümüz önündə bir daha canlanır. Həmin dövrün tarixi gerçəkliyi odur ki, Azərbaycanda dövlət müstəqilliyi haqqında Konstitusiya aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, ölkəmiz yalnız müdrik dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə qayıdışından sonra öz həqiqi müstəqilliyinə qovuşdu. O vaxta qədər Azərbaycan siyasi çəkişmələr burulğanında boğulurdu, ölkədə qarşıdurma son həddə çatmışdı. Siyasi hakimiyyətdə bir-birlərini əvəz edən səriştəsiz və naşı iqtidarların günahı üzündən ölkəmiz həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni sahələrdə dərin tənəzzülə uğrayırdı, Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi.

Azərbaycanda 1990-cı illərin əvvəllərində yaranmış tarixi şəraitdə milli dövlət quruculuğunun üzləşdiyi spesifik xüsusiyyətlərlə və tarixi şərtlərlə bilavasitə əlaqədar idi. Bütün bunlar müasir tariximizin ibrət dərsləridir və onlardan düzgün nəticə çıxarıb, gələcək nəsillərə çatdırmağa borcluyuq. Tarix özü təsdiqlədi ki, məhz ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dövləti və Azərbaycan xalqı başının üstünü almış bütün təhlükələrdən qurtuldu. Ulu öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur.

Dövlət o vaxt güclü və yenilməz olur, qarşısına çıxan maneələri dəf edə bilir ki, onun rəhbəri ilə xalqı arasında birlik mövcud olsun. Məhz bu birlik və həmrəylik tarixin müxtəlif dönəmlərində ölkəmizin taleyində əvəzsiz rol oynayıb, xalqımızı başının üstünü almış bütün bəlalardan hifz edib qoruyub. Dünyanın ən dahi şəxsiyyətlərindən olan ulu öndərimiz Heydər Əliyevin bütün mənalı ömrü və fəaliyyəti doğma xalqına və Vətəninə sədaqətlə xidmətin parlaq nümunəsidir. Böyük qürur hissi və fəxrlə “Mən öz mənalı həyatımın düz 60 ilini xalqımızın bugünü və sabahı ilə yaşamışam... Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”, - söyləyən ulu öndərimiz sözün ən yüksək mənasında xalqımızın müdrik və əvəzsiz lideri idi. Azərbaycan xalqının bu dahi və fədakar oğlunun bir sözü ilə, bir müraciəti ilə milyonlarla insan ayağa qalxır, öz rəhbərinin arxasınca gedir, ən çətin anlarda onun yanında olurdu. Təsadüfi deyil ki, müasir Azərbaycan tarixinin ən parlaq səhifələri, istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə respublikamızda cərəyan edən proseslər, əldə etdiyimiz uğurların hamısı birbaşa Heydər Əliyevin şəxsiyyətindən qaynaqlanır. Bu dahi şəxsiyyət Azərbaycanı qüdrətli bir dövlət, xalqını güclü bir millət kimi formalaşdırmaq kimi son dərəcə çətin bir missiyanı öz üzərinə götürüb və şərəflə yerinə yetirmişdir.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının qorunmasına xidmət edən orqana çevrilmiş və bunun təməli ümummilli lider cənab Heydər Əliyevin birbaşa rəhbərliyi altında işlənilib hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuşdur. Belə ki, 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının ölkə ərazisində birbaşa qüvvəyə malik olduğu, onların təmin edilməsi isə dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Bu baxımdan təsadüfi deyil ki, ölkə həyatının bütün sahələrinin təşkili və fəaliyyət əsaslarını müəyyən edən Konstitusiya normalarının böyük qismi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur.

Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz azadlığı bərqərar olmuş, dövlət idarəçilik sistemi tamamilə yenidən qurulmuş, məhkəmə-hüquq islahatları uğurla davam etdirilmişdir. Ölkənin idarəetmə sistemində siyasi mədəniyyət elementləri güclənmiş, icra hakimiyyəti orqanlarının işinin dinamikliyi artmış, yerli özünüidarə orqanları formalaşmışdır. Eyni zamanda, ulu öndərin respublikaya rəhbərliyi illərində ölüm cəzasının, mətbuat üzərində senzuranın ləğvi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, üçpilləli məhkəmə sisteminin formalaşdırılması, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə Müvəkkil İnstitutunun yaradılması demokratik inkişaf yolunda əldə etdiyimiz mühüm nailiyyətlərdəndir.

Konstitusiyanın ölkəmizdə aparılan islahatlara təkan verməsi və bunun məntiqi nəticəsi kimi qəbul edilmiş Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar Məcəllələri, “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanunlar və digər normativ-hüquqi aktların qəbulu islahatların tərkib hissəsinə çevrilmişdir.

Dövlət quruculuğu prosesində mühüm rol oynayan hüquq-mühafizə orqanlarının fəaliyyətini daim diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin respublikanın prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi müşavirə zamanı nitqi bu qurumun tarixində çox mühüm olan yeni mərhələnin başlanğıcını qoymuşdur. Məhz həmin nitq prokurorluqda sağlam kadr korpusunun formalaşdırılması, zəruri normativ bazanın yaradılması prokurorluq orqanlarının işlək və çevik bir quruma çevrilməsi üçün islahatlara təkan vermişdir.

Azərbaycan Respublikası qazandığı iqtisadi və siyasi nailiyyətlər, bir çox beynəlxalq layihə və proqramların ölkəmizdə uğurla gerçəkləşdirilməsi dünya birliyinin ölkəmizə olan marağını və inamını daha da artırmış, insan hüquq və azadlıqlarının təminatı üçün görülən işlər, iqtisadi, siyasi, hüquqi və mədəni islahatlar Azərbaycanı digər inkişaf etmiş dövlətlər sırasına çıxarmaqla, kəsərli söz sahibinə, etibarlı tərəfdaşa çevirmişdir.

Bu gün dövlət-vətəndaş münasibətlərinin hüquqi müstəvidə tənzimlənməsində, vətəndaşların Konstitusiya ilə təsbit edilmiş və dövlət tərəfindən qorunan hüquq və azadlıqlarının müdafiəsində prokurorluq öz səlahiyyətləri çərçivəsində layiqincə iştirak edir. Prokurorluq orqanlarının əməkdaşları vətəndaşlarla münasibətdə, onların müraciətlərinin həllində “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Qanunun, Baş Prokurorluğun sahəvi əmrlərinin və “Etik davranış Kodeksi”nin tələblərinə uyğun diqqət, qayğı və təmkin göstərirlər. Vətəndaşları narahat edən problemlər araşdırılır, hüquqi qiymət verilir və ədalətli qərarlar qəbul edilməkiə onlara qanuna müvafiq qaydada məlumat verilir. Məsələnin həllinə bu cür yanaşma, prokurorluq orqanları tərəfindən göstərilən qayğı və diqqət vətəndaşların dövlətə inam və etibarını daha da artırır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da təkmilləşərək müasirləşdirməsi dövrünün əsasını qoymuş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, insan hüquq və azadlıqlarının qorunması, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində, prokurorluğun fəaliyyətinin digər istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi uğurlar əldə edilmişdir. Dövlət Proqramının icrası üzrə prokurorluq orqanlarının fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və vacib əhəmiyyətli tədbirlər görülməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Azərbaycanın Respublikası Prokurorluq orqanları öz fəaliyyətində əsas prioritet və meyar olan ədalət və şəffaflığı müdafiə edərək bu gün də ölkədə aparılan quruculuq proseslərində fəal iştirak edir, dövlətin və vətəndaşların qanuni mənafelərinin, mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, insanların azad və sərbəst yaşaması üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Ölkənin prokurorluq orqanları hər zaman dövlətin diqqət və etimadını hiss edir, fəaliyyətinə verilən yüksək qiyməti minnətdarlıqla qarşılayır, habelə xalqa və qanunçuluğa göstərdyi xidmətdən böyük qürur duyur.

Əminliklə deyə bilərik ki, dövlətinə, xalqına və Prezidentinə hər zaman sadiqlik nümayiş etdirən prokurorluq orqanları bundan sonra da üzərinə düşən bütün vəzifələri məsuliyyətlə yerinə yetirməklə, cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizədə prinsipial mövqe tutacaq, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüququnun reallaşdırılması sahəsində bütün zəruri tədbirləri həyata keçirəcəkdir.

**Pənah ABBASOV,**
**İmişli rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**